**Müzəffər ordumuzun işğal altındakı ərazilərimizin azad olunması istiqamətində həyata keçirdiyi uğurlu əməliyyatlar nəticəsində oktyabrın 18-də Xudafərin körpüsü üzərində üçrəngli Azərbaycan bayrağı qaldırıldı.**

# Xudafərin körpüsü Azərbaycana və regiona hansı iqtisadi faydaları verəcək...

## *Natiq Cəfərli: "Geosiyasi baxımdan da Xudafərinin geri alınması olduqca əhəmiyyətlidir"*

Xudafərinin düşmən işğalından azad edilməsi hərbi baxımdan strateji uğur, tarixi ədalətin bərpası, xalqımızın öz mədəniyyət incilərinə sahib çıxması olmaqla yanaşı, həm də İranla Azərbaycan arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi, bölgənin sosial-iqtisadi inkişafına mühüm təkan verəcək hadisədir.

Xudafərin körpüsünün işğaldan azad olunması ilə Azərbaycan tarixi torpağına qovuşmaqla yanaşı, həm də Araz çayı üzərində tikilən su elektrik stansiyasına, su anbarına nəzarət etmiş olacaq.

Qeyd edək ki, 4 il əvvəl - 2016-cı ilin fevralında Tehranda imzalanmış və həmin ilin iyununda Milli Məclisdə ratifikasiya olunmuş saziş Azərbaycanla İran arasında Araz çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyasının tikintisinə yol açıb. O zaman bəzi siyasi qüvvələr iddia edirdilər ki, saziş nəticəsində Araz çayı üzərində inşa olunan körpülər işğalçı Ermənistanla İran arasında kommunikasiyanı gücləndirəcək. Bu razılaşmanın mahiyyətini və strateji əhəmiyyətini dərk etməyənlər o zaman bunu, az qala, "İran-Ermənistan əməkdaşlığı"na şərait yaratması kimi qələmə verir və hakimiyyətə qarşı ittihamlar irəli sürürdülər. Layihənin birtərəfli olması, hətta milli maraqlara zidd olması barədə ittihamlar səsləndirilirdi. Bu fikirlər Azərbaycanın regional siyasətinə kölgə salan qərəzli yanaşma idi. Araz sərhəd çayıdır, onun üzərində və ətraf ərazilərində layihələrin həyata keçirilməsi iki qonşu dövlətin münasibətlərini inkişaf etdirmək niyyətindən irəli gəlirdi.

Sazişin 1-ci maddəsində deyilir ki, tərəflər hər iki ölkənin suverenliyi, ərazi bütövlüyü və mənafeləri əsasında Araz sərhəd çayı üzərində "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının və su elektrik stansiyasının tikilməsinin davam etdirilməsi və istismarı ilə əlaqədar birgə fəaliyyət göstərəcəklər.



*"...Azərbaycanın özünün təbii su resurslarına çıxış imkanları genişlənir"*

Hər iki tərəfin maraqları sazişdə suveren bərabərlik əsasında qorunur və saziş beynəlxalq hüquq normalarına uyğun olaraq tərtib olunub. Müqavilənin tənzimlədiyi bütün məsələlərdə Azərbaycan və İranın bərabərhüquqlu fəaliyyət göstərməsi bütün müddəalarda öz əksini tapmışdı. Belə ki, 2016-cı ilin fevral ayında imzalanmış sazişin preambulasında göstərilir ki, tərəflər BMT TŞnin məlum 4 qətnaməsinin tələblərinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının əhəmiyyətini nəzərə alaraq, müqaviləni imzalayıblar. Bu isə o deməkdir ki, imzalanmış saziş Azərbaycanın ərazi bütövlüyünə əsaslanan beynəlxalq sənəddir.

Xatırladaq ki, Azərbaycan Nazirlər Kabineti 18 may 1992-ci ildə "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikilməsi məsələləri haqqında qərar qəbul edib. Həmin il mayın 25-də imzalanmış ilkin obyektlərin müəyyənləşdirilməsi və tikintisi barədə sazişdə "Araz çayı üzərində 2 avtomobil körpüsünün tikintisi, tikinti zonasında müvəqqəti avtomobil yollarının salınması, tikinti zonasında asfalt-beton örtüklü daimi yolların salınması" əks olunub.

1993-cü ilin fevral ayında tikintisi başa çatdırılan "Xudafərin" bəndinin yardımçı körpüsünün Azərbaycan və İran rəsmilərinin iştirakı ilə açılış mərasimi keçirilib. Paralel olaraq, Azərbaycan Hökuməti "Qız qalası" layihəsi üçün də yardımçı körpünün tikintisinə başlayıb, torpaqlarımızın Ermənistan tərəfindən işğalı səbəbindən Azərbaycan şirkətləri bəndlərin tikintisində fəaliyyətlərini tamamilə dayandırıb və bundan sonra körpünün tikintisi İran tərəfindən başa çatdırılıb. Nazirlər Kabinetinin məlum qərarında "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarının tikintisi ilə bağlı tərəflərin hüquq və öhdəliklərini əks etdirən, o cümlədən, bəndlərin tikintisi, birgə istismarı və idarəçiliyi məsələlərini özündə ehtiva edən çərçivə sazişinin bağlanmasının nəzərdə tutulmasına baxmayaraq, elə həmin qərarla tikintinin başlanmasına start və səlahiyyətlər verilib. Bundan sonra bəndlər ətrafında gedən proseslər bu cür çərçivə sazişinin mövcud olmadığı şəraitdə baş verib.

İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, Xudafərinin işğaldan azad edilməsinin həm də simvolik əhəmiyyəti var: "Xudafərinin azad edilməsi tariximizin önəmli parçasıdır. 27 il idi ki, düşmən tapdağında idi və artıq azad edilib. Xudafərinin strateji önəmi də çoxdur. Çünki İranla sərhəd məntəqələrinin ən sıx olduğu yerlərdən biridir. İndi öz infrastrukturumuzu quracağıq, Ermənistanin işğalçı ordusunun oradakı narkotik ticarətinin və digər bütün qanunsuz əməllərinin qarşısı alınacaq. Bundan əlavə, bu yaxınlarda Xudafərində su anbarı tikildi. Azərbaycanın son illər ən böyük problemlərindən biri aqrar sektorda suvarma problemidir. Təbii səbəblərə görə su çatışmazlığı yaşayırdıq. Lakin artıq Azərbaycanın özünün təbii su resurslarına çıxış imkanları genişlənir. Bu həm Suqovuşana, həm də Xudafərin bəndinə aiddir. Mən əminəm ki, yaxın gələcəkdə Sərsəng su anbarına da nəzarəti əldə edəcəyik. Bütün bunlar aqrar sektorda olan suvarma problemlərinin həllində kifayət qədər ciddi rol oynaya biləcək bir məsələdir".

Ekspert onu da əlavə etdi ki, geosiyasi baxımdan da Xudafərinin geri alınması olduqca əhəmiyyətlidir: "İran həmin su anbarını və Xudafərin barajını tikərkən Azərbaycan tərəfindən belə bir tələb var idi ki, bu proses bir az ertələnsin.

Çünki bu sahəyə həmin vaxt biz nəzarət edə bilmirdik. Tələbə baxmayaraq, İran bu prosesi həyata keçirdi. Bu gün isə Azərbaycan Ordusu həmin bölgələri işğaldan azad edərək, artıq Azərbaycan tərəfdən də öhdəliklərin yerinə yetirilməsinə şərait yaratdı, yəni Xudafərin su barajına nəzarət həm də Azərbaycan tərəfdən həyata keçiriləcək. Bu, qonşu ölkələrə də pozitiv mesaj oldu ki, Azərbaycan, istənilən halda, öz strateji hədəflərinə çatmaq gücünə malikdir və o gücü tətbiq edərək, öz ərazisində bundan sonra da təmizləmə əməliyyatlarını davam etdirəcək".

*Günel CƏLİLOVA*

## Polislər yaralı əsgərlərimizi ziyarət etdilər

**Şanlı ordumuz sentyabr ayının 27-dən başlayan Vətən müharibəsi ilə dünyaya Azərbaycan Ordusunun gücünü, qüdrətini bir daha sübut etdi. Düşməni peşman edən mərd oğullarımız cəsarətlə Vətən uğrunda döyüşlərə atıldılar. Onların arasında döyüşlərdə şəhidlik zirvəsinə ucalanlar da, güllə yarası alanlar da var.**



Ürəyi Vətən eşqi ilə döyünən və düşmənin atdığı mərminin partlaması nəticəsində yaralanan oğullardan biri də 30 yaşlı Elvin Qurbanovdur. Xaçmaz rayonunun Aşağı Zeyid kəndində anadan olan Elvin "N" saylı hərbi hissədə xidmət edir. Döyüşün ilk günlərindən bir çox əhəmiyyətli döyüşlərdə mərdliklə döyüşüb, kənd və qəsəbələrin işğaldan azad olunmasında iştirak edib. Ürəyi vətən eşqi ilə döyünən E.Qurbanov oktyabr ayının 6-da torpaqlarımızın işğaldan azad olunması istiqamətində gedən döyüşdə mənfur düşmənin atdığı mərmi nəticəsində yaralanıb. Hazırda xəstəxanada müalicə alır.

Mərd oğulların bu günlərdə ziyarətçiləri də az deyil. Onlar arasında Xaçmaz Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Həmid Həsənov, şöbənin şəxsi heyəti, eləcə də digər rayon sakinləri olublar. Elvin Qurbanova baş çəkənlər onunla fəxr etdiklərini bildirərək, azad olunan torpaqların sevincini yaralı igidlərimizlə birlikdə yaşayırlar. Daha sonra RPŞ-nin əməkdaşları Elvinin rayonun Aşağı Zeyid kəndinə yaşayan ailəsinə baş çəkərək, atası Mürvət kişinin qonağı olublar. Övladlarının mərdliklə vətən uğrunda döyüşündən fəxrlə danışan ataya belə vətənpərvər övlad böyütdükləri üçün təşəkkür edən polislərimiz, onunla fəxr etdiklərini bildiriblər.

Düşmənlə döyüşdə yaralanan digər bir əsgər isə Əlimusa Mehdiyevdir. 2019-cu ilin oktyabr ayında hərbi xidmətə yollanan igidimiz Vətən müharibəsində iştirak etdiyi üçün öyünür. O da döyüşlərdə qolundan yaralanıb. Yarasının onu qorxutmadığını və heç bir ağrı hiss etmədiyini bildirir. Əksinə nə sual verilirsə gözləri gülür və sevinclə cavab verir: "Qələbə bizimdir!"

Yaralı əsgərlərimizdən ürəkdolusu Qələbə sözünü eşitdikcə hər birimizin ürəyi fərəhlənir və yalnız dilimizə bir söz gəlir: "Eşq olsun Azərbaycanın mərd oğullarına. Yaşasın Müstəqil Azərbaycan!".

## BMU-nun əməkdaşı "Əl-Cəzirə" kanalında təşkil olunan növbəti debatda...

**Bakı Mühəndislik Universitetinin (BMU) Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Amil Abdullayev Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən hərbi cinayətlərlə bağlı "Əl-cəzirə" kanalında təşkil olunan növbəti debatda iştirak edib.**

Humanitar atəşkəsin pozulması ilə bağlı "Əl-Cəzirə" kanalının aparıcısının sualına cavabında A.Abdullayev bildirib ki, atəşkəsin pozulması hər zaman Ermənistən tərəfindən baş verib. Ermənilər birinci atəşkəsdən sonra Gəncə şəhərini, eləcə də cəbhə zonasından kənarda yerləşən sivil ərazilərimizi bombalayıb. İkinci dəfə mülki insanların sıx məskunlaşdığı Gəncə şəhərinin SCUD raketləri ilə hədəfə alınması onu göstərir ki, ermənilər atəşkəsdən istifadə edib müharibəni davam etdirirlər: "Ermənilər atəşkəsin prinsiplərinə, ruhuna və məzmununa sadiq qalmırlar. Həm hücum edirlər, həm də atəşkəsdən istifadə edib yenidən silahlanmağa və Azərbaycana qarşı yeni hücumlara hazırlaşırlar. Bunu artıq bütün dünya, o cümlədən diplomatik nümayəndəliklər və beynəlxalq təşkilatlar görüb".

A.Abdullayev Prezident cənab İlham Əliyevin oktyabrın 17-də xalqa müraciətini xatırladıb: "Prezidentin də vurğuladığı kimi, biz heç bir şəkildə ermənilərin mülki əhalisini vurmağa çalışmırıq. Bizim mülki əhalini vurmamağa diqqət göstərməyimiz onların sivillərinə humanist yanaşmamızın nəticəsidir. Atəşkəsə də razı olmağımızın səbəbi humanist prinsiplərə əsaslanır".

A.Abdullayev Ermənistan tərəfindən Çenevrə Konvensiyası da daxil olmaqla bütün növ humanitar hüququn prinsiplərinin pozulmasını diqqətə çatdırıb.

Debat zamanı BMU əməkdaşı substanstiv danışıqlar olarsa, ATƏT-in Minsk qrupunun bu məsələnin həllində rolu ilə əlaqədar suala da cavab verib.

Qeyd edək ki, debata Rusiyadan siyasi təhlilçi Andrey Ontikov, Ermənistandan jurnalist və yazıçı Sako Arian da qatılıb.